# Baş prokuror Qəbələdə vətəndaşları qəbul etmişdir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinə müvafiq olaraq vətəndaşların qəbulu, onların müraciətlərinə vaxtında baxılması və haqlı tələblərinin təmin edilməsi bütün dövlət təsisatlarının əsas vəzifələrindən biri kimi müəyyənləşdirilmişdir.

Baş prokuror Zakir Qaralov sentyabrın 4-də Qəbələ rayon prokurorluğunun inzibati binasında Qəbələ, Şəki, Qax, Balakən, Oğuz və Zaqatala rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuş, əziz xatirəsini dərin ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar rayonların prokurorlarının iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan vətəndaşların müraciət, şikayət və təkliflərini dinləmiş, qaldırılan məsələlərin bir qismi yerindəcə öz həllini tapmış, digər məsələlərə isə baxılması üçün prokurorluğun müvafiq struktur rəhbərlərinə tapşırıqlar vermişdir.

Prokurorluğun fəaliyyətinə aid olmayan müraciətlər araşdırılmaq üçün aidiyyəti üzrə göndərilmişdir.

Qəbul zamanı vətəndaşlar əhaliyə göstərilən hərtərəfli qayğıya, bölgələrdə qəbulların silsilə xarakter almasına, regionlarda aparılan sosial-iqtisadi inkişafa görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə etmişlər.

# Qəbələdə sərhəd strukturlarında idarəçilik və rəhbərlik mövzusunda təlim

Sərhəd idarəçiliyinin təkmilləşdirilməsi prosesinin əsas elementlərindən biri sərhəd idarəçiliyini həyata keçirən qurumlarda idarəçilik modellərinin ən üstün beynəlxalq təcrübələrə əsaslanaraq mütəmadi təkmilləşdirilməsidir. Məhz bu məsələləri müzakirə etmək və daha dərindən öyrənmək məqsədilə cari ilin



1—3 sentyabr tarixlərində Qəbələ şəhərində “Sərhəd strukturlarında idarəçilik və rəhbərlik bacarıqlarının artırılması” mövzusunda təlim keçirilmişdir. Tədbir Avropa İttifaqı, BMT İnkişaf Proqramı və Dövlət Sərhəd Xidmətinin birgə həyata keçirdikləri “Azərbaycan və Gürcüstan arasında quru sərhədin mühafizəsinin daha yaxşı əlaqələndirilməsi” layihəsinin 3-cü komponenti çərçivəsində təşkil olunmuşdur.

Tədbir sərhəd idarəçiliyi orqanları əməkdaşlarının idarəetmə və rəhbərlik vəzifələrinə dair nəzəri biliklərinin artırılması, bu sahədə birgə fəaliyyət və struktur quruculuğunun həyata keçirilməsi, idarəçilik üslubunda, təşkilati inkişaf və idarəetmədə yarana biləcək çətinliklərin aradan qaldırılması üzrə məlumat mübadiləsinin daha da gücləndirilməsi məsələlərinə həsr olunmuşdur.

Tədbirdə bu sahədə ikitərəfli əməkdaşlığa dair beynəlxalq təcrübə müzakirə edilmiş, belə əməkdaşlığın səmərəliliyi və icra mexanizmləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Beynəlxalq Miqrasiya Siyasəti İnkişaf Mərkəzinin Avstryadan olan ekspertləri tərəfindən keçirilən ikitərəfli təlimdə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və Gürcüstanın Sərhəd və Patrul Polisinin nümayəndələri, BMT İP-nin Azərbaycan və Gürcüstan ofislərinin səlahiyyətli şəxsləri iştirak etmişlər.

Dövlət Sərhəd Xidmətinin BMT İP və Avropa İttifaqı ilə birgə həyata keçirdiyi adı çəkilən layihənin əsas məqsədi regionda ümumi təhlükəsizliyə müsbət təsir göstərməklə Azərbaycan və Gürcüstan arasında quru sərhəddə əlaqələndirilmiş tədbirlər mexanizmini yaratmaq və tətbiq etmək üçün hər iki ölkənin sərhəd orqanlarının fəaliyyət potensialını daha da inkişaf etdirməkdən ibarətdir.

Layihədə iki ölkə arasında mövcud quru sərhədin mühafizəsinin gücləndirilməsi istiqamətində əlaqələndirilmiş əməliyyatların keçirilməsi imkanlarının mümkünlüyünün öyrənilməsi və tətbiqi, Dövlət Sərhəd Xidməti ilə Gürcüstanın Sərhəd Polisi arasında əməkdaşlığın gücləndirilməsi, iki ölkənin sərhəd mühafizə orqanları üçün təlim proqramlarının hazırlanması, müasir infrastrukturun yaradılması və yüksək texnologiyalı avadanlıqlarla təchiz olunması kimi məsələlərin həlli nəzərdə tutulmuşdur.

**Mətin və foto**
**İlkin VƏLZADƏNİNDİR.**

# “2016-2025-ci illər üçün Azərbaycanda turizmin inkişaf strategiyası” hazırlanıb

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hazırlanmış “2016-2025-ci illər üçün Azərbaycanda turizmin inkişaf strategiyası” layihəsi ölkəmizdə turizm sənayesinin mövcud vəziyyəti, inkişaf potensialı, turizmin inkişafında hökumətin rolu, maraqlı tərəflər arasında potensial əməkdaşlıq formaları, bu əməkdaşlıqların uğurla qurulması metodları və bir sıra digər mühüm elementlər haqqında məlumat və tövsiyələri əks etdirən sənəddir.

“2016-2025-ci illər üçün Azərbaycanda turizmin inkişaf strategiyası” layihəsi təsdiq edilməsi məqsədilə aidiyyəti quruma göndərilib və hazırda razılaşdırılma mərhələsindədir.

# Qadınların ictimai siyasi fəallığının artırılması müstəqil dövlətimizin nailiyyətlərindəndir

Azərbaycan qadınlarının ilk dəfə Pekində keçirilən IV Ümumdünya Qadın Konfransında iştirakının 20 illiyi tamam olur. Vətənimiz Azərbaycanda anaya, qadına hörmət ta qədimdən bu günədək gəlib çıxan adətlərimizdəndir. Bu hörmətin, bu diqqətin nəticəsidir ki, Azərbaycan tarixində ictimai-siyasi həyatda fəal mövqe tutan qadınlarımızın ad-sanı bu günədək gəlib çıxmışdır. Qədim Azərbaycanın əfsanəvi hökmdarı Tomris Vətənin istiqlaliyyəti uğrunda yadellilərlə mübarizədə əsl kişi qeyrəti göstərmişdir. Dahi Azərbaycan şairi Nizaminin İsgəndərnamə poemasında təsvir olunmuş Azərbaycanlı hökmdar qadın Nüşabə öz dərin zəkası və ağlı ilə dünyanı fəth etmiş İsgəndərə qalib gəlir, vətənini işğaldan qoruyur. Azərbaycan tarixi məşhur şair, yazıçı, alim qadınlarla da zəngindir.

Bütün bunlarla bərabər XX əsr Azərbaycan qadınının əsl inkişaf dövrü sayıla bilər. Hələ 1918-ci ildə Azərbaycan ilk dəfə müstəqillik əldə edərkən Azərbaycan Demokratik Respublikasında qadın nəinki şərqdə, hətta bir sıra qərb dövlətlərindən də öncə qadınların dövlət orqanlarına seçib-seçilmək hüququnu təsbit etdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra da qadınların ictimai həyatda mövqeyi saxlanıldı.

Azərbaycan ötən əsrin əvvələrində və 90-cı illərin sonlarında ikinci dəfə müstəqillik əldə etdi. Müstəqilliyin ilk illərində qadınların cəmiyyətdə rolu qeyri-müəyyən vəziyyətdə idi. 1990-cı ilin payızında seçilmiş Azərbaycan Respublikası parlamentində demək olar ki, qadınlar təmsil olunmurdular. Doğrudur, həmin vaxt hələ Azərbaycanın müstəqilliyi elan olunmasa da AXC Müsavat hərəkatı çox güclü idi və seçkilərə də, ictimai-siyasi hadisələrə də güclü təsir imkanları vardı. Ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi və dövlət siyasəti səviyyəsinə qaldırılması ümumilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə xalqın tələbi və arzusu ilə hakimiyyətə qayıdan ulu öndərin qadınların cəmiyyətdəki rolunun artırılması ilə bağlı imzaladığı çoxsaylı fərman və sərəncamlar qadın hüquqlarının təminatı istiqamətində irəliyə doğru atılmış nəhəng addımlardır.

1995-ci ildə Birləşmiş Millətlər Təşkilatının qərarı ilə Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində qadın məsələləri ilə əlaqədar 4-cü Ümumdünya Konfransı keçirildi. Həmin konfransa hazırlıqla əlaqədar ümumilli lider Heydər Əliyevin 15 sentyabr 1994-cü il tarixli Fərmanı ilə Azərbaycan qadınlarının Milli Komitəsi yaradıldı.

**(Ardı 4-cü səhifədə).**